«Dövlət qeydiyyatına alınmışdır»

Azərbaycan Respublikasının
Ədliyyə Nazirliyində

«26» fevral 2020-ci il

Qeydiyyat və notariat baş
idarəsinin rəisi:

İlqar Məmmədov ______________

«Təsdiq edilmişdir»

Ümumi yığıncağın 31.01.2020-ci il tarixli
qərarı ilə

Səlahiyyətli şəxs:
Əliyev Azər Allahverdi oğlu

______________

# "Azərbaycan Sığortaçılar Assosiasiyası" ictimai birliyinin
# NİZAMNAMƏSİ

## (3-cü redaksiyada)

## I. ÜMUMİ MÜDDƏALAR

1.1. "Azərbaycan Sığortaçılar Assosiasiyası" ictimai birliyi (bundan sonra – Birlik adlandırılacaq) ümumi maraqlar əsasında birləşmiş, könüllülük, üzvlərinin hüquq bərabərliyi prinsipləri əsasında yaradılan, öz fəaliyyətinin əsas məqsədi kimi gəlir əldə etməyi nəzərdə tutmayan və əldə edilən gəliri öz üzvlərinin arasında bölməyən qeyri-hökumət təşkilatıdır və fəaliyyəti Azərbaycan Respublikasının ərazisini əhatə edir.

1.2. Birlik öz fəaliyyətini Azərbaycan Respublikasının Konstitusiyası, "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikasının Qanunu, digər normativ-hüquqi aktlar və bu Nizamnamə əsasında həyata keçirir.

1.3. Birlik Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində 29.12.2006-cı il tarixdə 1106-Q15-2291 nömrə ilə dövlət qeydiyyatına alınmışdır. Birliyin müstəqil balansı, üzərində adı yazılmış möhürü, ştampı, Azərbaycan Respublikasının banklarında hesablaşma hesabı və digər rekvizitləri vardır.

1.4. Birliyin tam adı:
Azərbaycan dilində: "Azərbaycan Sığortaçılar Assosiasiyası" ictimai birliyi;
İngilis dilində: "Azerbaijan Insurers Association" public union;
Rus dilində: Общественное объединение "Ассоциация Страховщиков Азербайджана".

1.5. Birliyin hüquqi ünvanı: Bakı şəhəri, H.Cavid prospekti 15.

## II. BİRLİYİN MƏQSƏD VƏ VƏZİFƏLƏRİ

2.1.Birliyin əsas məqsədi Azərbaycan Respublikasında fəaliyyət göstərən və birliyin üzvləri olan sığorta və təkrarsığorta şirkətlərinin, eyni zamanda sığorta vasitəçilərinin və sığorta sahəsində yardımçı fəaliyyət göstərən və sığorta sahəsi ilə əlaqədar olan digər hüquqi şəxslərin inkişaf etməsinə köməklik göstərmək, onların sosial-iqtisadi və digər inkişaf proqramlarını təkmilləşdirmək və bu sahədə elmi bilikləri artırmaqdan ibarətdir.

2.2.Birlik məqsədlərinə çatmaq üçün aşağıdakı vəzifələri həyata keçirir:

2.2.1 Öz üzvlərinin qanuni maraqlarını və hüquqlarını müdafiə etmək, onlara fəaliyyətlərinin səmərəliliyinin artırılmasına kömək etmək;

2.2.2 Üzv şirkətlər arasında münasibətləri tənzimləmək;

2.2.3 Sağlam rəqabətin əsas prinsiplərinə riayət edilməsinə dəstək olmaq;

2.2.4 Sığorta sahəsində haqsız rəqabətin qarşısının alınması üçün dövlət və digər səlahiyyətli orqanlar ilə birgə tədbirlər görmək;

2.2.5 Ölkədə sığorta işinin inkişafı üçün Birliyin təsisçilərinin və üzvlərinin əməkdaşlığını təmin etmək, layihə və uzunmüddətli proqramların həyata keçirilməsi üçün onların qüvvələrini birləşdirmək;

2.2.6 Azərbaycan Respublikasında sığorta işinin inkişaf etdirilməsi və etibarlı şəkildə həyata keçirilməsinə köməklik etmək, sığorta xidmətləri bazarının tənzimlənməsi və sığortaya nəzarətin gücləndirilməsi üzrə dövlət və digər səlahiyyətli orqanlar ilə əməkdaşlıq etmək;

2.2.7 Dövlət və digər səlahiyyətli orqanlarda, siyasi və ictimai təşkilatlarda öz üzvlərinin qanuni mənafelərini təmsil etmək və qorumaq;

2.2.8 Beynəlxalq təcrübənin tələblərinin iri həcmli sığorta və təkrarsığorta əməliyyatları aparan sığorta və təkrarsığorta şirkətləri tərəfindən nəzərə alınmasına dair tövsiyələr vermək;

2.2.9 Üzvlərə təşkilati, analitik, metodik və digər sahələrdə kömək etmək;

2.2.10 Birliyin təsisçilərinin və üzvlərinin, mütəxəssislərinin peşə hazırlığı səviyyəsinin artırılmasına kömək etmək.

## III. BİRLİYİN HÜQUQLARI

3.1.Birlik aşağıdakı hüquqlara malikdir:

3.1.1 Öz adından əqdlər bağlamaq, əmlak və şəxsi qeyri-əmlak hüquqları əldə etmək, məhkəmədə iddiaçı və cavabdeh kimi çıxış etmək;

3.1.2 Azərbaycan Respublikasının ərazisində və xaricdə filial və nümayəndəliklərini təsis etmək;

3.1.3 Müxtəlif beynəlxalq qeyri-hökumət təşkilatlarına qoşulmaq, könüllülük prinsipi əsasında birləşərək ittifaqlar yaratmaq, hüquqi şəxslərin ittifaqlarının yaradılmasında iştirak etmək, belə ittifaqlara qoşulmaq;

3.1.4 Azərbaycan Respublikasının aidiyyəti dövlət, bələdiyyə və digər səlahiyyətli orqanları ilə əməkdaşlıq etmək;

3.1.5 Xarici dövlətlərdə, eləcə də, Azərbaycan Respublikasında mövcud olan analoji qurumlarla işgüzar əlaqələr yaratmaq;

3.1.6 Sığorta sahəsində araşdırmalar, tədqiqatlar, monitorinqlər, sorğular aparmaq, layihələr hazırlamaq, onların həyata keçirilməsi üçün tədbirlər görmək;

3.1.7 Üzvlərinin məqsədləri və fəaliyyəti barədə kommersiya sirri olan məlumatlar istisna olmaqla, məlumatları sərbəst yaymaq, qanunvericiliyə müvafiq qaydada mətbu nəşrlər təsis etmək;

3.1.8 Sığorta sahəsində çalışan kadrların ixtisasının artırılması və onların təkmilləşdirilməsi üçün məktəblərin, mərkəzlərin və kursların yaradılması, müxtəlif sığorta və təkrarsığorta təşkilatlarında treyninqlərin keçirilməsini təşkil etmək, tədris mərkəzləri yaratmaq;

3.1.9 Müxtəlif kurslar və seminarlar, dəyirmi masa və görüşlər, sərgilər təşkil etmək, konfranslar, xeyriyyə marafonları, digər mədəni-kütləvi tədbirlər keçirmək;

3.1.10 Xarici ölkələrdə fəaliyyət göstərən təşkilatların onun məqsəd və mənafelərinə zidd olmayan tədbirlərinə qoşulmaq;

3.1.11 Birlik üçün sosial-mədəni obyektlər yaratmaq;

3.1.12 Banklarda hesablar açmaq və hesablaşmalar aparmaq;

3.1.13 Müstəqil balansa, möhürə, ştampa və digər rekvizitlərə malik olmaq;

3.1.14 Qanunvericiliyin təkmilləşdirilməsinə dair təkliflər hazırlamaq;

3.1.15 Qanunvericiliklə və nizamnamə ilə qadağan edilməyən, Birliyin yaradılma məqsədlərinə nail olmasına yönəldilmiş digər fəaliyyət növləri, o cümlədən sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq. Həyata keçirilməsi üçün qüvvədə olan qanunvericiliklə müvafiq lisenziyanın alınması nəzərdə tutulmuş fəaliyyət növləri ilə yalnız belə lisenziyanın alınmasından sonra məşğul ola bilmək;

3.1.16 Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş digər hüquqlardan istifadə etmək.

## IV. BİRLİYİN ƏMLAKI VƏ MALİYYƏ FƏALİYYƏTİ

4.1. Birliyin mülkiyyətində binalar, qurğular, mənzillər, avadanlıqlar, inventarlar, pul vəsaitləri, səhmlər, digər qiymətli kağızlar və bu Nizamnamə ilə nəzərdə tutulmuş fəaliyyətin maddi təminatı üçün qanunvericiliklə qadağan olunmamış növlərdə əmlak ola bilər.

4.2. Birlik öz öhdəliklərinə görə əmlakı ilə cavabdehdir. Bu əmlak yalnız Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq özgəninkiləşdirilə bilər.

4.3. Birliyin əmlakının pul və digər şəkildə formalaşdırılması mənbələri aşağıdakılardır:

4.3.1 Birliyin təsisçilərinin və üzvlərinin müntəzəm və ya birdəfəlik üzvlük haqları;

4.3.2 İdarə, müəssisə, yerli və beynəlxalq təşkilatların və vətəndaşların könüllü verdikləri əmlak hüquqlarından əldə edilən gəlirləri və ianələri;
4.3.3 Səhmlər, istiqrazlar, başqa qiymətli kağız və əmanətlərdən alınan dividendlər, gəlirlər;
4.3.4 Öz əmlakından istifadə və onun satılması nəticəsində əldə edilən gəlirlər;
4.3.5 Qrantlar;
4.3.6 Sərgilərdən, konsertlərdən və digər tədbirlərdən əldə olunan gəlirlər;
4.3.7 Təsis etdiyi müəssisələrin fəaliyyəti nəticəsində əldə olunan gəlirlər;
4.3.8 Qanunvericilikdə qadağan olunmamış digər daxilolmalar.

4.4. Birliyin təsisçiləri və üzvləri onun mülkiyyətinə daxil olan ayrı-ayrı obyektlər üzərində xüsusi hüquqlara malik deyil.

4.5. Birlik Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilmiş qaydada öz fəaliyyətinin məqsədlərinə və əmlakın təyinatına müvafiq olaraq öz əmlakı üzərində sahiblik, istifadə və sərəncam hüququna malikdir.

4.6. Birlik siyasi partiyalara maliyyə və digər yardımlar göstərə bilməz.

4.7. Birliyin hesabına daxil olmuş məqsədli vəsait başqa istiqamətlərdə xərclənə bilməz.

4.8. Birlik qanunvericiliklə müəyyən edilmiş qaydada maliyyə, statistik və sair hesabatlar tərtib edir və dövlət orqanlarına təqdim edir.

## V. BİRLİYİN ÜZVLÜYÜNƏ QƏBUL

5.1. Birliyin təsisçiləri sığorta və təkrarsığorta şirkətləri, eyni zamanda sığorta vasitəçiləri (müstəsna olaraq bu fəaliyyətlə məşğul olan hüquqi şəxslər) ola bilərlər.

5.2. Birliyin üzvləri 5.1-ci bənddə göstərilənlərlə yanaşı sığorta sahəsində yardımçı fəaliyyət göstərən və sığorta sahəsi ilə əlaqəli olan digər hüquqi şəxslər ola bilərlər.

5.3. Birliyin üzvlüyünə qəbul Birliyin Müşahidə Şurası tərəfindən həyata keçirilir.

5.4. Birliyə daxil olmaq üçün Müşahidə Şurasına yazılı şəkildə müraciət edilir. Ərizəyə bir ay müddətində baxılır. Səsvermə nəticəsində Müşahidə Şurası üzvlərinin yarıdan çoxu bu məsələyə müsbət münasibətlərini bildirdikdə, ərizəçi Birliyin üzvü seçilmiş hesab edilir.

5.5. Birliyə üzvlük haqlarının miqdarı Birliyin Müşahidə Şurasının təqdimatı ilə Birliyin Ümumi Yığıncağı tərəfindən müəyyən edilir.

5.6. Birlikdə üzvlüyə aşağıdakı hallarda xitam verilir:
5.6.1 Könüllü olaraq Birliyin üzvlüyündən çıxdıqda;
5.6.2 Birliyin üzvlüyündən çıxarıldıqda.

5.7. Birliyin üzvü aşağıdakı hallarda üzvlükdən çıxarılır:
5.7.1 Birliyin işgüzar nüfuzuna xələl gətirən hərəkətlərə yol verdikdə;
5.7.2 Mütəmadi olaraq Birliyin fəaliyyətində iştirak etməkdən yayındıqda;
5.7.3 Nizamnamə tələblərinə zidd hərəkət etdikdə;
5.7.4 Mütəmadi olaraq üzvlük haqlarını ödəməkdən yayındıqda.

5.8. Birliyin üzvlərinin üzvlükdən çıxarılması Müşahidə Şurası tərəfindən həyata keçirilir.

5.9. Birliyin üzvünün həmin qərardan Birliyin Ümumi Yığıncağına və məhkəməyə şikayət etmək hüququ vardır.

## VI. BİRLİYİN TƏSİSÇİLƏRİNİN VƏ ÜZVLƏRİNİN HÜQUQ VƏ VƏZİFƏLƏRİ

6.1. Təsisçilər və üzvlər bərabər hüquqlara malikdir. Təsisçilərin və üzvlərin qarşılıqlı münasibətləri, hüquq və vəzifələri qanunvericiliklə, yaxud onların arasında bağlanmış müqavilə ilə və ya bu Nizamnamə ilə müəyyən edilir.

6.2. Birliyin təsisçiləri və üzvləri öz aralarında bərabərhüquqlu olub aşağıdakı hüquqlara malikdirlər:

6.2.1 Bu Nizamnamədə və digər sənədlərdə nəzərdə tutulmuş qaydada təşkilatın idarəçiliyində birbaşa iştirak etmək;

6.2.2 Birliyin hər hansı seçkili, o cümlədən rəhbər orqanına seçmək və seçilmək;

6.2.3 Birliyin fəaliyyətinə nəzarət etmək;

6.2.4 Ümumi Yığıncağın çağırılmasını tələb etmək;

6.2.5 Ümumi Yığıncağın gündəliyində dəyişikliklər edilməsini tələb etmək.

6.2.6 Birliyin təşkil etdiyi tədbirlərdə iştirak etmək;

6.2.7 Birliyin idarəetmə orqanlarının fəaliyyəti barədə məlumat almaq;

6.2.8 Öz mənafelərinin müdafiəsinə kömək göstərilməsi üçün Birliyə müraciət etmək;

6.2.9 Birliyin illik hesabatı ilə tanış olmaq;

6.2.10 Onun hüquq və vəzifələri ilə bağlı hər hansı məsələnin müzakirəsində şəxsən iştirak etmək,

6.2.11 Birliyin müvafiq orqanlarına etirazını bildirmək və şikayət etmək.

6.2.12 Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş digər hüquqlardan istifadə etmək.

6.3. Birliyin təsisçiləri və üzvləri aşağıdakı vəzifələri daşıyırlar:

6.3.1 Birliyin seçkili orqanlarının qərarlarını yerinə yetirmək;

6.3.2 Birliyin Nizamnaməsinin tələblərinə riayət etmək;

6.3.3 Birliyin fəaliyyətində və iclaslarında iştirak etmək;

6.3.4 Birliyin müəyyən edilmiş üzvlük haqqını vaxtında ödəmək;

6.3.5 Birliyin üzvlərinin məqsədləri və faəliyyət barədə kommersiya sirri olan məlumatları yaymamaq.

6.4. Birliyin təsisçisi və üzvü yalnız Birliyin müvafiq orqanları səlahiyyət verdikdə həmin orqanı təmsil edə və ya onun adından bəyanatla çıxış edə bilər.

## VII. BİRLİYİN TƏŞKİLATI STRUKTURU VƏ İDARƏETMƏ ORQANLARI

7.1. Birliyin idarəetmə orqanları aşağıdakılardır:

7.1.1 Ali idarəetmə orqanı - Ümumi Yığıncaq;

7.1.2 Ümumi rəhbərliyi və nəzarəti həyata keçirən -Müşahidə Şurası;

7.1.3 İcra orqanı -İcraçı direktor.

*<u>Ümumi Yığıncaq</u>*

7.2. Birliyin ali idarəetmə orqanı ildə 1 dəfədən az olmayaraq çağırılan Ümumi Yığıncaqdır.

7.3. Ümumi Yığıncaq Birliyin Müşahidə Şurasının, İcra orqanının, təsisçilərdən birinin və ya üzvlərinin üçdə bir hissəsinin təşəbbüsü ilə çağırılır.

7.4. Birliyin təsisçilərinə və üzvlərinə Ümumi Yığıncağın yeri və vaxtı haqqında azı iki həftə əvvəl məlumat verilməlidir.

7.5. Ümumi Yığıncağın iclasını Müşahidə Şurasının sədri aparır, bu mümkün olmadıqda həmin iclasda iştirak edən Müşahidə Şurası üzvləri sırasından iclasa sədr seçilir.

7.6 . Ümumi Yığıncağın səlahiyyətinə aşağıdakılar aiddir:

7.6.1 Birliyin Nizamnaməsinin qəbulu və ona dəyişikliklər edilməsi;

7.6.2 Birliyin Müşahidə Şurasının üzvlərinin və Sədrinin seçilməsi və onların səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi;

7.6.3 Birliyin büdcəsinin təsdiq edilməsi;

7.6.4 Birliyin əmlakının formalaşması və istifadə prinsiplərinin müəyyən edilməsi;

7.6.5 İllik hesabatın təsdiq edilməsi;
7.6.6 Başqa təşkilatlarda iştirak barədə qərarın qəbul edilməsi;
7.6.7 Müşahidə Şurası sədrinin təqdimatı ilə Birliyin İcraçı direktorunun seçilməsi və onun səlahiyyətinin vaxtından əvvəl dayandırılması;
7.6.8 Birliyin yenidən təşkili və ya ləğv edilməsi.

7.7. Ümumi Yığıncaq yalnız Birlik üzvlərinin yarısından çoxu iştirak etdikdə səlahiyyətli hesab olunur.

7.8. Ümumi Yığıncaqda onun səlahiyyətinə aid məsələlər üzrə qərarlar sadə səs çoxluğu ilə qəbul edilir. Hər bir üzv bir səsə malikdir. Ümumi yığıncaqda yazılı protokol aparılır. Protokol yığıncağın sədri və katibi tərəfindən imzalanır. Yığıncağın protokolu lazım gəldikdə bütün üzvlərə paylanmalıdır.

*Müşahidə Şurası*

7.9. Müşahidə Şurası Birliyin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirən idarəetmə orqanıdır.

7.10. Müşahidə Şurasının səlahiyyətləri:
7.10.1 Birliyin üzvlüyünə qəbul edir və üzvləri üzvlükdən azad edir;
7.10.2 Birliyin adından mühüm əhəmiyyətli əqdlərin bağlanmasına razılıq verir;
7.10.3 Birliyin Komitələrini yaradır və onların fəaliyyətinə xitam verir;
7.10.4 Müşahidə Şurası sədrinin təqdimatı əsasında Komitələrin Əsasnamələrini təsdiq edir
və Komitə sədrlərini vəzifəyə təyin və vəzifədən azad edir;
7.10.5 Üzvlük haqqının miqdarının müəyyən edilməsi üçün Birliyin Ümumi Yığıncağına təqdimat verir;
7.10.6 Birliyin Ümumi Yığıncağının və digər orqanlarının səlahiyyətlərinə aid edilməyən bütün digər məsələləri həll edir.

7.11. Müşahidə Şurasının iclasları.
7.11.1 Müşahidə Şurasının iclasları Müşahidə Şurası sədrinin və ya üzvlərdən birinin təşəbbüsü ilə sədr tərəfindən çağrılır.
7.11.2 Müşahidə Şurasının iclasları Müşahidə Şurası üzvlərinin yarısından çoxu iştirak etdikdə səlahiyyətli sayılır və qərarları sadə səs şoxluğu ilə qəbul edilir; Müşahidə şurasının qərarları sədrin və katibin imzaladığı protokolla rəsmiləşdirilir.
7.11.3 Müşahidə Şurasının üzvləri Müşahidə Şurasının iclaslarında 1 səsə malikdirlər. Səslər bərabər olarsa, sədrin səsi həlledici sayılır;
7.11.4 Müşahidə Şurasının üzvləri Müşahidə Şurasının iclaslarında bitərəf ola bilməzlər;
7.11.5 Müşahidə Şurasının iclasını Müşahidə Şurasının sədri aparır, bu mümkün olmadıqda Müşahidə Şurasının iclasına həmin iclasda seçilmiş üzv sədrlik edir.

7.12. Müşahidə Şurasının üzvlüyünə qəbul.
7.12.1 Müşahidə Şurasının üzvləri Birliyin üzvləri sırasından seçilir;
7.12.2 Müşahidə Şurasının üzvləri ən azı 5, ən çoxu 9 üzvdən ibarət tək sayda ola bilər;
7.12.3 Müşahidə Şurasının üzvləri Birliyin Ümumi Yığıncağı tərəfindən 3 (üç) il müddətinə seçilir və üzvlər növbəti müddətlərə yenidən seçilə bilərlər.

7.13. Müşahidə Şurasının sədrinin səlahiyyətləri:
7.13.1 Müşahidə Şurasının işini təşkil edir, iclaslarını çağırır və onlara sədrlik edir, Müşahidə Şurasının təsdiqlədiyi bütün sənədləri imzalayır;
7.13.2 Birliyin İcraçı direktorunun seçilməsi ilə bağlı Ümumi Yığıncağa təqdimat verir;

7.13.3 Birliyin Ümumi Yığıncağı və Müşahidə Şurasının müzakirəsinə çıxarılmış məsələlər üzrə məlumatların, materialların və təkliflərin hazırlanmasına və qəbul olunmuş qərarların icrasına nəzarət edir, bununla bağlı İcraçı direktordan hesabatlar tələb edir;

7.13.4 Birliyin illik hesabatlarının və balansının hazırlanması və Ümumi yığıncağa təqdim olunmasına nəzarət edir;

7.13.5 Birliyin büdcəsinin və kontragentlərlə bütün növ müqavilələr üzrə öhdəliklərin icrasına nəzarət edir, bununla bağlı İcraçı direktordan hesabatlar tələb edir.

*Birliyin İcraçı direktoru*

7.14. Birliyin icra orqanı təkbaşına fəaliyyət göstərən İcraçı direktordan ibarətdir.

7.15. İcraçı direktor birliyin cari fəaliyyətinə rəhbərlik edir və 3 il müddətinə Müşahidə Şurası sədrinin təqdimatı ilə Ümumi Yığıncaq tərəfindən seçilir. İcraçı direktor növbəti müddətə yenidən seçilə bilər.

7.16. İcraçı direktor aşağıdakı vəzifələri daşıyır:

7.16.1 Ümumi Yığıncaq və Müşahidə Şurasının qərarlarının icra edir;

7.16.2 Müşahidə Şurasının sədri ilə razılaşdırmaqla Ümumi Yığıncağa və Müşahidə Şurasına hesabat verir;

7.16.3 Birliyin Nizamnaməsinə riayət edilməsinini təmin edir;

7.16.4 İllik hesabatı hazırlayır və Müşahidə Şurasının sədri ilə razılaşdırmaqla Ümumi Yığıncağa təqdim edir;

7.16.5 İcraçı direktor hər hansı bir təsisçi və ya üzvün maraqlarını təmsil etmədən müstəqil fəaliyyət göstərir və öz fəaliyyətində bütün təsisçi və üzvlərə bərabər münasibət göstərir;

7.16.6 Ümumi Yığıncaq və Müşahidə Şurası tərəfindən eləcə də, Nizamnamə ilə onun üzərinə qoyulan digər vəzifələri və səlahiyyətləri həyata keçirir.

7.17. İcraçı direktor aşağıdakı səlahiyyətlərə malikdir:

7.17.1 Birliyi etibarnaməsiz təmsil edir, onun adından müqavilələr bağlayır, etibarnamələr verir;

7.17.2 Birliyin əməkdaşlarını mükafatlandırır və tənbeh tədbirləri tətbiq edir;

7.17.3 Birliyə yeni işçilərin qəbul edilməsi və işdən azad edilməsi barədə qərarlar qəbul edir;

7.17.4 Birliyin əməkdaşlarının vəzifə təlimatlarını müəyyən edir və təsdiq edir;

7.17.5 Ümumi Yığıncaq və Müşahidə Şurasının iclasları üçün tələb olunan sənədləri hazırlayır;

7.17.6 Birliyin strateji (biznes) planının yerinə yetirilməsini təmin edir;

7.17.7 Müşahidə Şurasının sədri ilə razılaşdırmaqla Birliyin ştat cədvəlini təsdiq edir və icra aparatını formalaşdırır;

7.17.8 Müşahidə Şurasının sədri ilə razılaşdırmaqla Birliyin filiallarını və nümayəndəliklərini yaradır;

7.17.9 Birliyin cari fəaliyyətinin idarə edilməsi üçün digər məsələlər barədə qərarlar qəbul edir.

## VIII. BİRLİYİN FƏALİYYƏTİNƏ XİTAM VERİLMƏSİ

8.1. Birliyin fəaliyyətinə onun yenidən təşkil edilməsi (birləşmə, qoşulma, bölünmə, ayrılma, çevrilmə) və ləğv edilməsi yolları ilə xitam verilir. Birliyin fəaliyyətinə xitam verilməsi mövcud qanunvericilikdə nəzərdə tutulmuş qaydada həyata keçirilir.

8.2. Birliyin fəaliyyətinə xitam verilməsi haqqında qərara əsasən ləğvetmə komissiyası yaradılır. Bu andan Birliyin idarəçiliyi ilə əlaqədar bütün səlahiyyətlər ona keçir. Ləğvetmə komissiyası ləğvetmə balansını tərtib edir. Birliyin ləğvi zamanı büdcə ilə hesablaşmalardan və kreditorların tələbləri ödənildikdən sonra qalan əmlak qanunvericiliklə müəyyən olunmuş qaydada Nizamnamə məqsədlərinə, bu mümkün olmadıqda isə dövlət büdcəsinə yönəldilir. Birliyin ləğvi Azərbaycan Respublikasının Mülki Məcəlləsinə və digər qanunvericilik aktlarına əsasən həyata keçirilir.

## IX. DİGƏR ŞƏRTLƏR

9.1.Bu Nizamnamədə nəzərdə tutulmayan məsələlər qanunvericiliklə tənzimlənir.

9.2.Gələcəkdə bu Nizamnamənin müddəaları qanunvericiliklə ziddiyyət təşkil edərsə, qanunvericiliyin müddəaları tədbiq edilir.

9.3.Birliyin maliyyə ili qeydiyyata alındığı vaxtdan başlayır və növbəti ilin 31 dekabrında başa çatır. Növbəti maliyyə illəri isə 1 yanvarda başlayır və dekabr ayının 31-dək olan dövrü əhatə edir.

